# Azərbaycanda Ümumrusiya Dövlət Kinematoqrafiya İnstitutu (VQİK) günləri

## *9-10 aprel tarixlərində keçirilən tədbirlərin icmalı*

Dünyanın ilk kino məktəbinin 100 illiyi" layihəsi çərçivəsində S.A.Qerasimov adına Ümumrusiya Dövlət Kinematoqrafiya İnstitutunun (VQİK) rektoru, Mədəniyyət və İncəsənət Tədris Müəssisələri Assosiasiyasının prezidenti, Rusiya Federasiyasının Əməkdar mədəniyyət işçisi, Rusiya Təhsil Akademiyasının akademiki, professor Vladimir Malışevin rəhbərlik etdiyi professor, müəllim və tələbələrindən ibarət 40 nəfərlik nümayəndə heyətinin Azərbaycan səfəri gerçəkləşir.

9 aprel tarixində saat 10.30-da ADMİU-nun həyətində qonaqların rəsmi qarşılanma mərasimi baş tutub. ADMİU-nun kollektivi qonaqları Azərbaycan adət-ənənlərinə uyğun olaraq, milli musiqilərlə, milli şirniyyatlarla qarşılayıb. Tədbirdə ADMİU-nun tələbələri milli geyimlərdə əllərində xonça qonaqları salamlayıb.

Qaşılanma mərasimindən sonra saat 11.00-da ADMİU-nun Elmi Şura otağında tədbirin açılış mərasimi və mətbuat konfransı baş tutub. Mərasimi açıq elan edən ADMİU-nun rektoru, professor Ceyran Mahmudova dünyanın ilk kino məktəbinin nümayəndə heyətini ADMİU-da qarşılamaqdan məmnun olduğunu bildirib.

Rektor ADMİU-nun tarixi və fəaliyyəti haqqında danışıb, rusiyalı qonaqları tədris prosesi ilə, universitetin strukturu haqqında məlumatlandırıb. Açılış mərasimində iki ali təhsil müəssisəsi arasında təcrübə mübadiləsini, qarşılıqlı əməkdaşlıq əlaqələrini nəzərdə tutan əməkdaşlıq müqaviləsi imzalanıb. Müqaviləyə əsasən, yaxın gələcəkdə iki ali məktəb arasında tələbə və müəllim mübadiləsi, yay məktəblərinin, ustad dərsləri, seminar və treninqlərin keçirilməsi mümükün olacaq.

Daha sonra mətbuat konfransı başlanıb. Mətbuat nümayəndələrinin qonaqlarla görüşündə səfər çərçivəsində baş tutacaq tədbirlər haqqında məlumat verilib, qeyd olunub ki, 3 gün çox sayda tədbirlər həyata keçiriləcək. Səfər müddətində Rusiyanın Xalq artisti, Oskar mükafatçısı V.Menşovun yaradıcılıq gecəsi, A.M.Volodinin əsəri əsasında hazırlanmış "Beş axşam" tamaşasının nümayişi, kinematoqrafiyanın və teatr sənətinin müxtəlif sahələrini əhatə edən ustad dərsləri, seminarlar, məşğələlər, treninqlər, rəsm sərgiləri, film nümayişləri keçiriləcək. Tədbirdə jurnalistlərin sualları cavablandırılıb, bir sıra maraqlı təkliflər səslənib.

Mətbuat konfransından sonra - saat 12.00-da paralel şəkildə iki ustad dərsi başlanıb. ADMİU-nun Vernisaj zalında ÜDKİ Rəssamlıq fakültəsinin müəllimlərinin və tələbələrinin işlərindən ibarət sərginin açılışı olub. ÜDKİnin Rəssamlıq fakültəsinin dekanı, Rusiyanın Əməkdar rəssamı, Rusiya Rəssamlar İttifaqının və Kinematoqraflar İttifaqının üzvü, Rusiya İncəsənət Akademiyasının fəxri üzvü Valeri Arxipovun rəhbərliyi ilə "Kino istehsalatında rəssam işinin spesifikası" mövzusunda ustad dərsində ADMİU-nun Rəssamlıq fakültəsinin dekanı, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Sevil Kərimovanın və Dizayn və dekorativ tətbiqi sənət kafedrasının müdiri, Xalq artisti, professor Arif Əzizin rəhbərliyi ilə Rəssamlıq fakültəsinin və Kino və Televiziya fakültəsinin tələbələri iştirak edib.

Eyni vaxtda "Animasiya texnologiyaları və multimediyanın yeni imkanları" adlı ustad dərsi keçirilib. Tədbiri ÜDKİ-nin Animasiya və multimediya fakültəsinin dekanı "Multimedia rejissurası" emalatxanasının rəhbəri, dosent Yelena Yaremenko aparıb. Ustad dərsində Kino və televiziya sənətləri kafedrasının müdiri, Əməkdar incəsənət xadimi Rafiq Quliyevin rəhbərliyi ilə ADMİU-nun Kino və Televiziya fakültəsinin tələbələri iştirak edib.

14.00-da isə daha iki tədbir - ÜDKİ və ADMİU tələbələri ilə birlikdə "Səhnə hərəkətinin əsasları" adlı məşğələ keçirilib. Aktyor sənəti kafedrasının professoru, Rusiya Kaskadyorlar Assosiasiyasının, Rusiya Teatr Xadimləri İttifaqının və RF Plsatika üzrə Pedaqoqlar Gildiyasının üzvü Aydar Zakirov və ADMİU-nun Dram rejissoru və səhnə plastikası kafedrasının dosenti, Xalq artisti Pərviz Məmmədrzayevin rəhbərliyi ilə keçirilən məşğələdə rus və azərbaycanlı tələbələr birlikdə səhnə hərəkətinə dair təmrinlər, çalışmalar yerinə yetirib, bir-birilərinin təcrübəsini öyrənməyə çalışıblar.

Həmin vaxtda ADMİU-nun kiçik zalında ÜDKİ-nin ADMİU-dakı kinoklubunun açılışı olub. ÜDKİ-nin Yaradıcılıq emalatxanasının rəhbəri, RF Əməkdar incəsənət xadimi, "Nika" Rusiya Akademiyasının, Rusiya Kinematoqraflar İttifaqının üzvü, sənətşünaslıq doktoru, professor, Dostluq ordeni kavaleri Kirill Razloqovun rəhbərliyi ilə keçən tədbirdə Azərbaycanın Əməkdar incəsənət xadimi, kinorejissor Ayaz Salayev moskvalı həmkarını müşayiət edib.



17.00-da isə Universitetin böyük səhnəsində ÜDKİ və ADMİU-nun aktyor sənəti fakültələrinin tələbələrinin birgə hazırladığı "İlham" adlı klass-konserti baş tutub.

Günün sonuncu tədbiri Rusiyanın Xalq artisti, SSRİ Dövlət Mükafatı və "Oskar" mükafatı laueratı Vladimir Menşovun yaradıcılıq gecəsi baş olub. Saat 19.00-da Nizami Kino Mərkəzində keçirilən tədbirdə qocaman sənətkar tamaşaçıların qarşısına çıxıb.

Tədbiri giriş sözü ilə açan Azərbaycanın Əməkdar incəsənət xadimi, kinorejissor Ayaz Salayev özü də V.Menşovun pərəstişkarı olduğunu deyib. "Vladimir Valentinoviç "Moskva göz yaşlarına inanmır" bədii filmində hər bir rejissorun arzulayacağı iki şeyə nail oldu: kassa filmi çəkdi və Amerika Kino Akademiyasının mükafatı "Oskar"ı qazandı" - deyərək səbəbkarı səhnəyə dəvət edib.

Vladimir Menşov pərəstişkarları ilə görüşdə öz filmləri haqqında danışıb, doğulub boya-başa çatdığı Bakı şəhəri haqqında xatirələrini bölüşüb, yeni yaradıcılıq planlarından söz açıb və tamaşaçıların suallarını cavablandırıb. Gecənin sonunda Vladimir Menşov tədbirin təşkilatçılarına və tamaşaçılara təşəkkür edib. Tamaşaçılar sevimli sənətkarını alqışlarla yola salıb.

Növbəti gün tədbirlər saat 11.00-da metodiki məsələlər və təcrübə mübadiləsi ilə bağlı dəyirmi masa ilə ilə başlayıb. Dəyirmi masada ÜDKİ-dən V.Arxipov, A.Zakirov, İ.Klebanov, K.Kuznetsova, V.Menşov, K.Razloqov, Y.Rusinova, V.Xotinenko, T.Yakovleva və Y.Yaremenko, ADMİU-dan isə R.Quliyev, O.Mir-Qasım, A.Mir-Qasım, C.Quliyev, A.Salayev, H.Ömərova, S.Mikayılova, S.Kərimova, A.Əziz, İ.Ağayev və M.Məmmədli iştirak edib.

Nahar fasiləsindən sonra Böyük zalda ADMİU və ÜDKİ tələbələrinin "Aktyor rejissorun əsas ifadə vasitəsi kimi. Kastinq problemləri" adlı birgə məşğələsi keçirilib. Məşğələni ÜDKİnin Aktyor sənəti kafedrasının müdiri, səhnə danışığı kafedrasının dosenti, rejissor Kseniya Kuznetsova aparıb.

Saat 14.00-dan 16.00-dan ADMİU-nun kiçik zalında "Kinooperator sənətində işıq" adlı ustad dərsi keçirilib. ÜDKİ-də Yaradıcılıq eamalatxanasının rəhbəri, Kinooperator sənəti kafedrasının professoru, Kinooperatorlar Gildiyasının prezidenti, RF Kinematoqraflar İttifaqının üzvü, Rusiyanın Xalq artisti İqor Klebanovun keçdiyi ustad dərsində ADMİU Kino və Televiziya fakültəsinin tələbələri iştirak edib.

Saat 14.30-da isə Nizami Kino Mərkəzində "Müasir texnologiyaların kino prosesinə təsiri" mövzusunda ustad dərsi keçirilib. Tədbiri ÜDKİ-nin Bədii film rejissurası kafedrasının müdiri, professor, Rusiyanın Xalq artisti, RF Kinematoqraflar İttifaqının üzvü Vladimir Xotinenkonun və Yaradıcılıq emalatxanasının rəhbəri, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Kinoşünaslıq kafedrasının dosenti, Rusiya Kinematoqraflar İttifaqının üzvü Tatyana Yakovleva idarə edib. ADMİU-nun Kino və Televiziya fakültəsinin professor-müəllim heyəti və tələbələrinin də iştirak etdiyi ustad dərsi maraqlı müzakirələrlə, fikir mübadiləsi ilə yadda qalıb.

Günün sonuncu tədbiri isə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında nümayiş olunan ÜDKİ-nin "Beş axşam" tamaşası olub.

ÜDKİ-nin professoru, Aktyor emalatxanasının rəhbəri, Rusiyanın Xalq artisti, RF Əməkdar incəsənət xadimi Vladimir Fokinin A.M.Volodinin əsəri əsasında quruluş verdiyi tamaşada moskvalı tələbələr çıxış edib.

Sabah isə qonaqları ADMİU-nun Mədəniyyət Nazirliyi ilə birgə təşkil etdiyi mədəni proqram gözləyir. ÜDKİnin nümayəndə heyəti aprelin 11-də Atəşgah məbədində, Dövlət Film Fondunda, Xalça Muzeyində və şəhərin digər əlamətdar məkanlarında ekskursiyada olacaq, saat 19.00-da isə S.Vurğun adına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının binasında nümayiş olunacaq "Səmavi" tamaşasına baxacaqlar. Müasir Rusiya dramaturqları A.Şipanov və A.Abrosimovun "Səmavi və ya onun həyatından dörd saat" adlı pyesi əsasında hazırlanan monotamaşanın quruluşçu rejissoru ADMİU-nun tələbəsi Raulya Türkkandır. Tamaşada yeganə rolu ADMİU-nun tələbəsi Milana Sokolenko ifa edir.









**Altay Cəfərsoy**